BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2009*

# CİNAYƏT HÜQUQ NORMASININ MÜHAFİZƏEDİCİ FUNKSİYASI HAQQINDA

**V.Ş.QULİYEV**
***Bakı Dövlət Universiteti***
***q_vuqar@mail.ru***

*Məqalə cinayət hüququ normalarının müdafiəedici funksiyalarına aid məsələlərin həllinə həsr olunmuşdur.*

Hüquq normasının insanların davranışına təsiri insan fəaliyyətinin normalaşdırılması yolu ilə baş verir. Hüquq normasının, o cümlədən cinayət hüquq normasının spesifik əlaməti heç də onun ölçüsündə, informasiya müəyyən etməsində deyil, insanlar üçün davranış qaydası müəyyən etməsindədir. Hüquq normasının anlamı, onun davranışı tənzimetmə təbiətilə bağlıdır. Öncə hüquq normasının insanın davranışına təsirindən bəhs edərkən, qeyd edilən terminə diqqət yetirilməlidir. Hüquqi təsisatlar içərisində hüquq norması həlledici rol oynayır.

Qanunverici insanların davranışını optimal tənzim etmək üçün hüquq normasının köməyi ilə davranışın modelini yaradır [4, 24-27].

Modelləşdirmədən, adətən nəzəri-idrak, üsul kimi istifadə edilir. Elmi-tədqiqatlarda alimlər modeldən özlərinin fərziyyələrini yoxlamaq aləti kimi həmçinin təkcə elmi deyil, həm də praktiki vasitə kimi istifadə edirlər. Hüquqda da belə model çoxdan praktiki rol oynayır.

Hüquqda əsas toxuma – hüquq normasıdır. Hüquq norması hüquqla tənzim olunan insanın davranış modelidir.

Hüquq sistemlərində dövlət tərəfindən məqbul sayılan, yaxud məqbul sayılmayan müxtəlif növ ictimai münasibətlər modelləşdirilir. Əlbəttə, ayrı-ayrı normalarda dövlət ancaq mövcud şəraitdə məqbul sayılan davranış modelləri təsbit edir. Davranışın hansı əlamətləri normada təsbit edilir? Bu suala cavab verərkən ən azı ona iki cəhətdən yanaşılmalıdır: 1) hərəkət və ya fəaliyyət formasında; 2) davranışın səbəbinin bu və ya başqa elementinin hüquq normasında təsbit edilməsi formasında.

Qeyd edək ki, davranışa vadar edən determinatlardan – aşağıdakı mərhələlərdən keçən səbəbiyyətindən danışmaq olar: 1) davranışın motivasiyası; 2) planlaşdırılma; 3) qərar qəbul etmə; 4) icra etmə.

Davranışın motivasiyası ilə bağlı hüquqi tənzimin üç növünü fərqləndirmək olar. **Birinci** növ motivləşdirmə öhdəçilik müəyyən edən normalarla bağlıdır. Hüquq norması subyekt üçün müəyyən vəzifə nəzərdə tutur: belə vəzifə subyektdən dövlət mənafeyi üçün müəyyən qaydada hərəkət etmək, yaxud hərəkətdən çəkinmək öhdəçiliyi müəyyən edir**.**

**İkinci** növ motivasiya qadağanedici norma ilə bağlıdır. Bəzən belə normanın özündə motivə dair göstəriş olur (məsələn, tamah, intiqam, xuliqanlıq və s. motivlər).

**Üçüncü** qrup normaların doğurduğu motivasiya normalarda təsbit edilən

səlahiyyətverici hüquqla bağlı olur. Səlahiyyətverici normalarda adətən sanksiya nəzərdə tutulmur.

Beləliklə, hüquqi tənzim mexanizmi üç pilləni nəzərdə tutur: a) hüquq normasının formulə edilməsini; b) onların çəkindirici təsirini; v) hüquq münasibətinin məzmununu təşkil edən subyektlərin hüquq və vəzifələrinin realizə edilməsini.

Cinayət hüquq normasının hərəkət mexanizminə sosial, hüquqi, psixoloji, təşkilati və s. istiqamətdə baxmaq olar.

Cinayət hüquq münasibətləri ilə bağlı ən geniş yayılmış mövqeyə görə – cinayət qanununun qəbul edilməsi – hüquq münasibətlərini doğuran hüquqi fakt kimi mövcud olur. Əksər müəlliflər pozitiv xarakterli cinayət hüquq münasibətlərini qanunun qəbulu və qüvvəyə minməsi ilə əlaqələndirir.

Cinayət hüquq norması ilə törədilməsi qadağan edilən əməllər, onların növü və xarakteri müxtəlif ola bilər. Elə əməllər vardır ki, onlarla cinayət hüquqi mübarizə bütün tarixi dövrlərdə aparılmışdır.

Həyata və səhhətə, cinsi toxunulmazlığa, mülkiyyətə qəsd edən müxtəlif formada talama əməlləri, dövlət hakimiyyətinə və vəzifə nüfuzuna qəsd edən əməllər və s. belə əməllərə aiddir. Cinayət üzvlərinin tam əksəriyyəti belə qadağan edilən əməllərə könüllü riayət edir.

Bununla belə, müəyyən qəbildən olan əməllər də vardır ki, onlar özlərinin ictimai təhlükəliliyini yeni şəraitdə biruzə verir və qanunverici orqan ilk dəfə belə əməllərin kriminallığını müəyyən edir. Kriminallığı ilk dəfə müəyyən edilən əməllərlə cinayət hüquqi mübarizənin uğuru, öncə qadağanedici cinayət hüquq normasının ünvanlandığı subyektlərə vaxtında çatdırılmasından asılıdır.

Cinayət hüquqi mühafizəedici münasibətlərin predmeti zaman-zaman dəyişə bilər. Məsələn, respublikanın 1927 və 1960-cı illərdə qəbul edilən və qüvvədə olan Cinayət Məcəllələrində pozitiv tənzim münasibətlərinə aid olan bir sıra əməllər hazırda daha qadağan edilən əməllər kimi müəyyən edilmir. Belə əməllərə «tut ağaclarının, qaramalın müvafiq icazə olmadan kəsilməsi». «Xüsusi müəssisə sahibliyi fəaliyyəti ilə məşğul olma», «möhtəkirlik» və s. əməllər hazırda mühafizəedici cinayət hüquqi münasibətlərinin predmeti ola bilməz. Çünki qeyd edilən əməllərin artıq sosial təhlükəliliyi aradan qalxmışdır.

Mühafizəedici ictimai münasibətlərin yaranması üçün faktiki və hüquqi əsaslar mövcud olmalıdır. Öncə ölkənin sosial həyatında insanlar arasında ictimai təhlükəli davranış aktlarının real baş vermə ehtimalını ehtiva edən ictimai münasibətlər mövcud olmalıdır. Cəmiyyətdə baş verən təhlükəli hərəkətlər, zərərli davranışlar cəmiyyətin ziddiyyətləri ilə bağlıdır. Cəmiyyətdə mövcud olan ziddiyyətlər cəmiyyət üzvlərinin şəxsiyyətini müxtəlif səviyyədə deformasiyaya uğradır. Müəyyən mənada insan belə ziddiyyətlərin «keçiricisinə» çevrilir. Hər bir dövlət belə ziddiyyətləri neytrallaşdırmağın qayğısına qalmalı, cəmiyyət üzvlərini təhlükəli əməllərdən çəkindirməlidir.

İctimai təhlükəli davranış aktının baş vermə ehtimalını ehtiva edən ictimai münasibətlərin mövcudluğu – mühafizəedici ictimai münasibətlərin yaranmasının faktiki əsasları sayılır.

Təhlükəli davranışı özündə təsbit edən, başqa sözlə cəmiyyət üzvlərindən ictimai təhlükəli əməlin törədilməsindən çəkinmə öhdəçiliyi müəyyən edən cinayət hüquq normasının yaradılması belə münasibətlərin **hüquqi əsasları** hesab edilir.

Qadağanedici davranışdan çəkinmə öhdəçiliyi müəyyən edən cinayət hüquq norması – belə öhdəçiliyi bütün cəmiyyət üzvləri barəsində müəyyən edir. Burada

qeyd edilən cinayət hüquq normasının qadağanedici təsiri, ancaq ölkənin ərazisində yaşayan cəmiyyət üzvləri barəsində baş verir. Belə qadağanedici cinayət hüquq münasibətlərinin subyekti olmaq üçün şəxs qanunla müəyyən edilən yaş həddinə çatmalı, yaxud da müəyyən sosial statusa malik olmalıdır. Mühafizəedici cinayət hüquq münasibətlərinin yaranması üçün zamanın, məkanın, şəraitin də əhəmiyyəti vardır.

Müəlliflərdən A.İ.Boytsov qadağanedici cinayət hüquq normasının qəbulunda məkanın nəzərə alınmasını lüzumsuz sayır [2, 65]. Əlbəttə, biz belə mövqe ilə razılaşmırıq. Qadağanedici cinayət hüquq normasının hazırlanmasında və qəbulunda məkan anlayışının mühüm əhəmiyyəti vardır. Hazırlanan və qəbul edilən cinayət qanununda, ilk növbədə, qadağanedici əməllərə dair göstəriş olur. Belə göstəriş müəyyən ərazidə, məkanda yaşayan cəmiyyət üzvlərinə sanki müraciət formasında yayılır: «Qanunda göstərilən əməl ictimai təhlükəlidir (cinayətdir), belə əməli törətməkdən çəkinin, əks halda barənizdə cəza sanksiyası tətbiq ediləcəkdir».

Əgər şəxs müəyyən obyektiv və subyektiv səbəblər üzündən cinayət qanununun qadağanedici təsirinin qüvvədə olduğu ərazidə yaşamırsa, belə şəxslə qanunun icrasına nəzarət edən orqan (səlahiyyətli subyektlər) arasında cinayət hüquq münasibətləri yaranmayacaqdır.

Bununla belə, A.İ.Boytsovun cəmiyyət üzvlərinin qanunu bilmək prezumpsiyasına dair fikirlərini biz məqbul sayırıq. Müasir dövrdə cinayət qanunu üzrə bilmək prezumpsiyasını təmin etmək üçün A.İ.Boytsov aşağıdakı tədbirlər sistemini təklif edir: a) cinayət qanunu layihəsinin hazırlanmasında və qəbulunda aşkarlığın təmin edilməsi; b) qəbul edilən qanunun dərc edilməsi, c) cinayət qanunun dərc edilməsi ilə onun qüvvəyə minməsi arasında müəyyən edilən müddət qanunla tanış olmağa imkan verməlidir; ç) cinayət qanununun dili aydın olmalı, bir semantik mənanı ifadə etməlidir; d) cinayət qanunu barəsində informasiya vaxtında subyektlərə çatdırılmalı, qanunun tətbiqi ilə bağlı əks informasiya da vaxtında cəmiyyət üzvlərinə bildirilməlidir.

Müasir cinayət hüququnda, qanunun cəmiyyət üzvlərinə çatdırılması və onun çəkindirici təsiri təmin edilirmi?

Qəbul edilən qanunların dərc edilməsi və cinayət qanununda nəzərdə tutulan informasiyaların dərhal cəmiyyət üzvlərinə çatdırılmasının təmin edildiyini qəbul etmək yanlış olardı. Qəbul edilən qanunlar müntəzəm təbliğ edilməli, cəmiyyət üzvlərinin cinayət hüququ ilə bağlı maariflənməsi vacib vəzifə kimi həyata keçirilməlidir.

Müasir dünyada hüququ bilmək prezumpsiyası təmin edilmişdirmi? Müasir dövrdə dünya dövlətlərində az-çox buna səy edilir. Bununla belə hüququn tarixində dünyanın bəzi dövlətlərində hüququn prezumpsiyası nəinki həyata keçirilmir, əksinə qəbul edilən qanunla, eləcə də cinayət qanunu ilə tanışlıq, onu bilmək qanunla qadağan edilir. Məsələn, vaxtilə Yaponiyada qanunu bilmək imtiyazlı insanların hüququ idi. Belə bir prinsip rəhbər tutulurdu – qanunu bilmək yox, onu icra etmək lazımdır. Məsələn, Yaponiyanın 1742-ci il qanunu (məcəlləsi), onun məzmunu əhalidən gizlin saxlanılmışdır. Onun məzmunu yüksək hökumət pilləsində vəzifə tutan üç nəfər çinovnikə bəlli idi. Belə analoji hala biz Çin Xalq Respublikasında da rast gəlirik. ÇXR-in 1957-ci il Cinayət Məcəlləsi Xalq üçün tanışlıq məqsədilə dərc edilməmişdir.

Hazırda bu sahənin tədqiqatçılarından olan N.M.Kropaçev daha da irəli gedir. Cinayət qanununu əhalinin bilməsi anlayışına o, həm də, hər bir cəmiyyət üzvünün blanket dispozisiyaları bilməsi, cinayət işlərinə dair Ali Məhkəmənin Plenumunun qərarlarını bilməsi, cinayət qanunu və onun məzmununa, tətbiqi praktikasına dair ayrı-

ayrı mütəxəssislərin fikirlərinə dair kifayət qədər məlumatın olmasını zəruri sayır. Hələ bu azmış kimi cinayət tərkiblərinə daxil edilən, qiymətləndirilən əlamətlər ətrafında cəmiyyət üzvlərinin məlumatının olması məqbul sayılır. Müəllif haqlı olaraq qeyd edir ki, cinayət qanununu bilməmək heç də müasir şəraitdə məsuliyyətdən azad etməyə əsas vermir. Hər halda praktikada buna rast olunmur. Bəzi müəlliflərin fikrincə, prezumpsiya – əslində uydurma anlayışdır [3, 48]. Buna görə də, ədəbiyyatda hətta qanunu bilmək prezumpsiyasından imtina etmək təklif edilir. Burada çatışmayan bir cəhəti də qeyd etməyi məqbul sayırıq. Mühafizəedici münasibətlər birtərəfli cinayət hüquq normasına müncər edilir. Qoruyucu cinayət hüquq münasibətlərinin faktiki əsasları yaddan çıxarılır. Buna görə də, cinayət qanununun qüvvəyə minməsi hələ mühafizəedici münasibətləri yaratmır, konkret növdən olan həyat hadisələri, onların fikrincə, yetərincə təkrarolma tezliyi - cinayət hüquq yaradıcılığında cinayət hüquq normasının hipoteziyasını təşkil edir və cinayət hüquq münasibətlərinin faktiki əsaslarını yaradır.

Cinayət hüquq norması – mühafizəedici cinayət hüquq münasibətlərinin hüquqi əsası kimi, məsuliyyətin faktiki əsaslarını konkretləşdirir. Məsələn, respublikanın CM-nin 176-cı maddəsində əmək qabiliyyəti olmayan valideynləri saxlamaq üçün zəruri vəsaitləri verməkdən boyun qaçırmaq qadağan edilir. Lakin qanun bu sahədə baş verə biləcək ictimai münasibətləri dəqiqləşdirərək hipoteziyanı daha da konkretləşdirdi. Belə ki, cinayət hüquq norması övladların bütün halda deyil, ancaq əmək qabiliyyəti olmayan valideynlərin saxlanmasına dair məhkəmə qərardadını icra etməməyə görə yaşa dolmuş övladların məsuliyyətini müəyyən edir. Bu maddədə müəyyən edilən qadağanedici davranış konkretdir və aydındır. Qüvvədə olan cinayət qanununda elə normalar da vardır ki, qadağan edilən davranışın hüquqi fakt kimi çıxış etməsi üçün bir sıra əlavə şərtlər müəyyən edir. Cinayət qanunvericiliyinin konkret norması belə faktiki əsasları kifayət qədər konkretləşdirmək imkanına malik olmur. Məsələn, Respublikanın CM-nin 143-cü maddəsi «təhlükədə qoyma»ya görə cinayət məsuliyyəti müəyyən edir. Normada deyilir: «Həyat və ya səhhət üçün təhlükəli vəziyyətdə olan, lakin azyaşlı, yaxud da qoca olması üzündən, habelə xəstə və ya digər səbəblər üzündən köməksiz vəziyyətdə olan şəxsi bilə-bilə köməksiz vəziyyətdə qoyma, əgər təqsirkar bu şəxs barəsində kömək göstərmək imkanına malik olmuşdursa və şəxs zərərçəkən barəsində qayğı çəkmək vəzifəsi olduğu halda bunu etmirsə, ya da şəxs zərər çəkəni həyat üçün təhlükəli olan vəziyyətdə qoyarsa» kimi definisiya verilmişdir. CM-nin bu normasında məsuliyyətin hüquqi əsasları üçün beş qrup şərtlər müəyyən edilir: 1) «Şəxsin həyat və səhhət üçün təhlükəli vəziyyətdə olması; 2) şəxsin özünü mühafizə etmək imkanından məhrum olması; 3) şəxsin zərər çəkəni həmin vəziyyətdən xilas etmək imkanına malik olması; 4) şəxsin belə vəziyyətə düşmüş şəxsə kömək etmək vəzifəsinin olması; 5) təqsirkarın zərər çəkəni həyat üçün təhlükəli olan vəziyyətə salması» [1].

Göründüyü kimi, qeyd edilən norma ilə məsuliyyətin yaranması üçün, bu maddənin sadalanan beş bənddən ibarət hipoteziyası yaranmalıdır. Bu maddədə müəyyən qüsura da yol verilmişdir. Belə ki, təqsirkarın zərər çəkəni həyat üçün təhlükəli olan vəziyyətdə qoyması definisiyasına həm də «…səhhət» əlaməti də daxil edilməlidir.

Qüvvədə olan cinayət qanunvericiliyi cinayət sayılan əməllərin dairəsini müəyyən edərkən iki istiqaməti rəhbər tutur. Bir tərəfdən mühafizəedici cinayət hüquq münasibətlərini insanların fəaliyyət dairəsindən asılı olmayaraq qadağanedici davranış növlərini müəyyən edir. Digər cəhətdən qadağanedici əməllər həyatın spesifik sahəsi

ilə bağlı olur. Belə qadağanedici davranışlar, bunlar cinayət hüquq tənzim münasibətlərinin xüsusi subyektlə blanket dispozisiyası və s. ilə bağlı ola bilər.

Cinayət hüquq norması hipoteziyasının ətraflı təhlili, cinayət qanunvericiliyində mövcud olan boşluqları və ziddiyyətləri aşkar etməyə imkan verir.

Cinayət hüquq nəzəriyyəsində cinayət hüquq normalarının hipoteziyasının təsbit edilməsinin dəqiqliyindən asılı olaraq onları icra şəraitinə görə, müəyyən və nisbi müəyyən hipoteziyalara ayırırlar. Müəlliflərdən L.İ.Spridonova əlavə, həm də mütləq müəyyən hipoteziya növünü də fərqləndirir [5, 156]. Belə formada hipoteziyalara o halda rast olunur ki, cinayət qanunu özünün tətbiqi üçün zəruri olan faktiki halı qanunda təsbit etmir. Məsələn, Azərbaycan Respublikasının 1960-cı il Cinayət Məcəlləsinin xırda oğurluğa görə məsuliyyət müəyyən edən 87-ci maddəsində (maddənin dispozisiyasında) qeyd edilirdi ki, işin konkret vəziyyətindən asılı olaraq xırda oğurluğa yol verən şəxs barəsində ictimai təsir tədbirləri də tətbiq edilə bilər. Burada işin vəziyyəti konkret olaraq qanundan deyil, qanunu tətbiq edənin şəxsi mülahizəsindən asılı edilirdi. Belə məzmunlu hipoteziyalara – mütləq müəyyən dispozisiya adı verilmişdir.

Müəyyən hipoteziyaya malik olan cinayət hüquq normaları elə normalardır ki, burada hipoteziyada ictimai təhlükəli əməl ancaq fəal hərəkətlərlə törədilməsi ilə əlaqələndirilir. Nisbi müəyyən hipoteziyada işdə faktiki halın bir qismi göstərilsə də, bəzi əlamətlər qeyri-konkret vəziyyətdə «qiymətləndirilən əlamətlərlə» müəyyən edilir. Burada qiymətləndirilən əlamətin qəti məzmunu da yenə qanunu tətbiq edən orqandan asılı olur.

Deməli, hüquq nəzəriyyəsində təsbit olma dəqiqliyindən asılı olaraq biz hüquq normasında hipoteziyanın müəyyən və nisbi müəyyən növlərini fərqləndirdik. Digər müəlliflər isə hipoteziyanın həm də mütləq müəyyən növünün də fərqləndirilməsini zəruri sayır. Mütləq müəyyən hipoteziyaya o hallarda rast olunur ki, normada onun tətbiqini şərtləndirən amillər nəzərdə tutulmur. Yuxarıda qeyd etdik ki, belə norma hipoteziyanı yozmaq səlahiyyətini müəyyən səlahiyyətli orqana həvalə edir.

Müəyyən hipoteziya, sosial təhlükəli hadisəni təsvir edən normaların hipoteziyası kimi müəyyən edilməlidir. Müəyyən hipoteziya həm də qiymətləndirilən əlaməti olan normaların hipoteziyasının tərkib elementi kimi müəyyən olunur. Cinayət hüquq normalarında belə hipoteziyaların müəyyən edilməsini də məqbul saymaq olmaz. Ona görə də, tərkibdə göstərilən, qiymətləndirilən əlamətlə bağlı hipoteziyanın nəzərdə tutduğu hadisəni dəqiqliklə vermək, ümumiyyətlə, qiymətləndirilən əlamətlərin qəti doktorinal izahını vermək mümkün deyildir. Buna görə də, qiymətləndirilən əlamətlə bağlı hipoteziyada nəzərdə tutulan həyat hadisəsini çox halda qanunu tətbiq edən dövlət nümayəndəsinin səlahiyyətli şəxsləri həll edirdilər. Belə tərkibə misal olaraq «gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsi, əgər gəmi kapitanının belə kömək göstərilən şəraitdə öz gəmisi üçün, onun sərnişinləri və şəxsi heyəti üçün ciddi təhlükə yaranmazsa (nisbi müəyyən hipoteziya) kimi cinayət qanunu hipoteziyanı konkretləşdirir. Lakin cinayət hüquq normasında aparılan belə konkretləşdirmə gəmi kapitanına qeyri məhdud səlahiyyət verir. Xüsusən fəlakətə uğrayanlara kömək göstərilmirsə və gəmi kapitanı bunu öz gəmisi üçün «ciddi təhlükə» sayırsa, burada gəmi üçün təhlükənin ciddiliyi hansı amillərlə izah edilir. Bunun izahı hansı obyektiv amillərə söykənir, bəlli deyildir. Zənn edirik ki, burada hipoteziyanın məzmunu gəmi kapitanın şəxsi mülahizəsinə görə həll edilir, bunu da məqbul saymaq olmaz.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, cinayət hüquq normasının hipotezi-

yasının aydınlığı xeyli dərəcədə normanın dispozisiyasından asılıdır. Dispozisiyanın anlayışı nə qədər konkret olarsa hipoteziyanın nəzərdə tutduğu şərait də bir o qədər konkret və anlayışlı olar. Qeyd edilən mülahizə baxımından qüvvədə olan CM-nin 36-cı maddəsində nəzərdə tutulan definisiyanı uğurlu saymaq olmaz. Bu institutun bir sıra məqamlarına SSRİ Ali Məhkəməsinin 16 avqust 1984-cü il tarixli Plenumunun qərarı ilə aydınlıq gətirilir. Xüsusən, zəruri müdafiə hüququnun yaranma anı ilə qurtarma anına dair fikir aydınlığı mövcud deyildir. Belə ki, adını çəkdiyimiz plenumun qərarında müəyyən hallarda qəsd başlayana qədər, habelə qəsd qurtarsa da, müəyyən məqamlarda müdafiə edənə zəruri müdafiə hüququnu həyata keçirməyə səlahiyyət verilir. Qeyd edilən hallar isə cinayət hüquq normasının (mad.36) definisiyasında öz əksini tapmamışdır. Bundan əlavə, müdafiənin qəsdin xarakterinə və təhlükəlilik dərəcəsinə açıqdan-açığa uyğun olmaması, qanunda zəruri müdafiə həddini aşma hüdudu kimi müəyyən edilir. Lakin qüvvədə olan CM-nin 36-cı maddəsində, zənn edirik ki, qeyd edilən anlayışlar xeyli mücərrəd xarakter daşıyır. Buna görə də, praktikada, eləcə də, elmi ədəbiyyatda zəruri müdafiə həddini aşmaya dair xeyli başqa anlama malik ifadələr işlədilir. Məsələn, praktikada «həddən artıq müdafiə», «vaxtında həyata keçirilməyən müdafiə» kimi əsası olmayan kriteriyalar işlədilir. Bundan əlavə, xəyali müdafiə zamanı «ölüm» və «qəsdən bədənə ağır xəsarət yetirmə» kimi nəticələrə görə məsuliyyətin aradan qalxması kifayət qədər əsaslandırılmır. Göründüyü kimi, cinayət hüquq normasının hipoteziyasında aydın olmayan məqamların mövcudluğu, ilk növbədə dispozisiya ilə bağlıdır. Hipoteziyanın (yəni işin faktiki halının) konkretliyi, xeyli dərəcədə əməlin kriminallığını müəyyən edən normadan və onun dispozisiyasından asılıdır. Lakin qeyd etmək lazımdır ki, dispozisiyanın məzmunu da xeyli ictimai təhlükəliliyi müəyyən edən işin faktiki halının məzmunundan asılıdır. Buna görə də, əslində hipoteziyanın məzmununu konkretləşdirmək və ya genişləndirmək dispozisiyadan asılı olmur. Dispozisiya işin faktiki halının sosial təhlükəliliyini dəqiq ifadə etməlidir. Normanın dispozisiyası əməlin ictimai təhlükəliliyini aydın ifadə edənə qədər əməli konkretləşdirə bilər. Deməli, dispozisiya, əməlin faktiki halını hipoteziyanın məzmununu nəzərə almadan konkretləşdirmə apara bilməz. Əks halda, işin faktiki halının obrazı təhrif edilə bilər. Hipoteziyanın dispozisiyada konkretləşdirilməsi həddini aşan hallarda cinayət hüququnun mühafizəedici münasibətlərinin qurulmasına, eləcə də zəruri hallarda tənzimedici funksiyanın uğurla həyata keçirilməsinə ziyan gətirmiş olur.

Müasir cinayət hüququnun pozitiv funksiyasına cinayət törətməkdən çəkindirən vəzifələr məcmusu, belə vəzifələr çoxluğunu könüllü yerinə yetirməklə təmin edilir. Cəmiyyət üzvləri belə pozitiv münasibətlərdə təkcə vəzifələrə (cinayət törətməkdən çəkinmə) malik deyil, həm də müəyyən hüquqlara malikdir. Belə subyektiv hüquqlara, ilk növbədə şəraitə görə cəmiyyət üzvünün əməl törətmədiyi halda onun barəsində dövlət məcburiyyət tədbirinin tətbiq edilməsindən çəkinməyi tələb etmək hüququ vardır. Cinayət hüququnun müasir dövrdə siyasi mülahizələrdən azad olduğu şəraitdə belə subyektiv hüququn həyata keçirilməsi mümkündür.

Qanunda cinayət məsuliyyətini aradan qaldıran, cinayətin bütün əlamətlərinin müəyyən edilməməsi, cinayət qanununun məlum hallarda geriyə şamil edilməməsinin təsbit edilməsi, analogiyadan imtina edilməsi, «qanunda göstərilməyən əməlin cinayət sayılmaması – bütün bunlar elə şərtlərdir ki, qanunun icrasında dövlətin qanunu öz subyektiv mülahizəsinə görə tətbiq edilməsi, ondan «silah kimi» istifadə edilməsi imkanları aradan qalxır. Cinayət qanunu müasir dövrdə qanunlar külliyyatı kimi özünü büruzə verir. Ona təkcə sıravi vətəndaşlar deyil, həm də dövlət adından qanunun

icrasına nəzarət edən və onu icra edən orqanlar riayət etməli olur. Ancaq belə vəziyyətdə cinayət qanunvericiliyi hər bir şəxsin azadlığını və toxunulmazlığını təmin edir.

Bilə-bilə, yaxud səhv üzündən əsas olmadan cinayət məsuliyyətinə alınmış şəxs, belə vəziyyətdə yenə də cinayət hüququnun mühafizəedici münasibətlərindən irəli gələn öhdəçiliklərə riayət etməlidir. Başqa sözlə, cinayət hüququ ilə qadağa qoyulan əməlləri törətməkdən çəkinməlidir. Biz bu məsələ ilə bağlı müəlliflərdən V.V.Poxmelkinin mövqeyi ilə razılaşmırıq [4, 43]. V.V.Poxmelkinin fikrincə, cinayət törətmək üstündə məsuliyyətə alınan şəxs, məsuliyyətdən azad edilənə qədər cinayət hüququnun mühafizəedici münasibətlərinin subyekti ola bilməz [4, 156]. Zənn edirik ki, şəxs haqlı, yaxud da haqsız məsuliyyətə alınsa belə, o, həmişə cinayət hüququnun mühafizəedici münasibətlərinin subyekti olaraq qalır.

Əgər şəxs cinayət törətməkdə təqsirli deyildirsə, yaxud da cinayət məsuliyyəti daşımaq üçün zəruri yaş həddinə çatmamışdırsa, belə şəxs reabilitasiya almalıdır. Məsuliyyətə alınan şəxs dövlətin ərazisi daxilində mühafizəedici münasibətlərin subyektidir və onun şəxsiyyətinin toxunulmazlığı təmin edilir.

Nə qədər ki, hüquq sistemində cinayətin subyekti əlamətinin, habelə digər məsələlərin özbaşına yozumu imkanları qalır, məsələn, cinayət qanununun geriyə şamil edilməsi, qanunun tətbiqində təqsirin analogiya yolu ilə həll edilməsi, yuxarı instansiya məhkəmələrinin genişləndirici şərhə yol verməsi, anlaqlığın prezumpsiyası zəminində həll edilməsi və s.-yə yol verilməsi insan və vətəndaşın azadlığı və toxunulmazlığının təmin edilməsi heç də həmişə mümkün olmur.

Müasir cəmiyyətdə reabilitasiya hüququ, eləcə də cinayət hüquqi qadağalara riayət edilməsi vəzifəsi şəxsin subyektiv azadlıq hüququndan və toxunulmazlığının təmin edilməsindən doğmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun, 2009, 279 s.
2. Бойцов А.И. Действие уголовного закона во времени и пространстве. СПБ: СПБГУ, 1998, с.65.
3. Кропачев Н.М. Уголовно-правовое регулирование (механизм и система). СПБ: СПБГУ, 1999, 260 с.
4. Похмелкин В.В. Социальная справедливость и уголовная ответственность. М.: Юридическая литература, 1976, с. 156.
5. Спиридонов Л.И. Теория государства и права. Курс лекций. СПБ, СПБГУ, 1995, с.156.
6. Səməndərov F.Y. Cinayət hüququ (ümumi hissə): Dərslik. Bakı: Digesta, 2007, 687 s.

## ОБ ОХРАНИТЕЛЬНОЙ ФУНКЦИИ УГОЛОВНО-ПРАВОВОЙ НОРМЫ

**В.Ш.КУЛИЕВ**

**РЕЗЮМЕ**

Статья посвящена исследованию вопроса, относящегося к охранительной функции уголовно-правовой нормы.

В статье автор отмечает, что реализация охранительной функции уголовно-правовой нормы осуществляется с помощью охранительных уголовно-правовых отношений.

Автор определяет отличия фактической и юридической сторон возникновения охранительных уголовно-правовых отношений, и отмечает, что принятые законодателем уголовные законы составляют – егерену охранительных уголовно-правовых отношений, а удержание членов общества от совершения преступлений, посредством угрозы наказания, содержащегося в уголовно-правовых нормах – фактическую сторону охранительных уголовно-правовых отношений.

## ABOUT PROTECTIVE SECURITY FUNCTION OF CRIMINAL LAW CODE NORMS

**V.Sh.QULIYEV**

**SUMMARY**

The article is devoted to the investigation of the issue of the protective function of criminal Law code norms.

In the given article the author notes that the realization of the function of the criminal code norm is implemented with the help of criminal code relations.

The author distinguishes the difference between the factual and juridical aspects of the establishment of criminal code relations and determines that the laws adopted by the legislative bodies will contain the juridical side of the security function of the criminal law code, retaining the members of the society from committing a crime under the threat of punishment, contained in criminal code norms the real side of the criminal code relations.